Gəncə Dövlət Universiteti

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ ÜZRƏ İMTAHAN SESSİYASININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ QAYDALARI

**Rektor:** **Y.Ə.Yusibov**

**GDU Elmi Şurasının 09 dekabr 2022-ci il tarixli iclasında (Pr. № 03) təsdiqlənmişdir.**

**GƏNCƏ - 2022**

**Gəncə Dövlət Universiteti üzrə imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, ARTN-nin 11.09.2008-ci il tarixli 1059 saylı əmri təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında" müvəqqəti Əsasnaməyə, 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na eləcə də GDU-nun Nizamnaməsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanaraq Universitet Elmi Şurasının 09.12.2022-ci il tarixli tarixli (pr№03) iclasında müzakirə və təsdiq edilmişdir.**

## GDU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na və Avropa Kredit Transfer Sisteminə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Gəncə Dövlət Universitetinin (bundan sonra GDU) bütün fakültələrinə, şöbələrinə və kafedralarına şamil edilir.

1.3. Kredit sistemi əsasında təşkil olunmuş tədris prosesinin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1.3.1. hər bir təhsilalanın (bundan sonra – tələbənin) fərdi tədris planının olması və onların bu planın tərtib edilməsində iştirak etməsi;

1.3.2. GDU-nun tədris planlarına uyğun olaraq, tədris fənlərinin, semestrlər üzrə kreditlərin miqdarının, təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) seçiminin sərbəstliyinin təmin edilməsi;

1.3.3. təhsil prosesinə akademik məsləhətçilərin (tyutorların) cəlb olunması;

1.3.4. tələbəyə sərbəst iş üçün şəraitin yaradılması;

1.3.5. biliyin qiymətləndirilməsində çoxballı sistemin tətbiq edilməsi;

1.3.6. hər semestrdə tədris qruplarının fənlər üzrə formalaşdırılması;

1.3.7. tələbə və təhsilverənlərin mobilliyinin təmin olunması;

1.3.8. təhsilalma müddətinin tələbənin nailiyyətindən asılı olması (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla);

1.3.9. fakültələrin, kafedraların, ixtisasların, fənlərin, müəllimlərin və tələbələrin kodlaşdırılması.

1.3.10. GDU tələbələri kredit sisteminin təşkili qaydaları ilə tanış etməli və təhsil müddətində tələbəyə tədris planında nəzərdə tutulmuş krediti qazanmasına şərait yaratmalıdır.

1.5. GDU -da kredit sistemi ilə tədrisin təşkili müvafiq qurumlar (tədris departamenti, tyutor xidməti, fakültə dekanlıqları və şöbələr) tərəfindən tənzimlənir.

1.6. Bu Qaydalar ali təhsilin əyani (tədrisə tam cəlb olunma - fulltime və tədrisə qismən cəlb olunma - parttime) və qiyabi təhsilalma formalarına şamil edilir.

1.7. Bu Qaydaların icrası ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi dövlət sifarişi ilə təhsil alan tələbələrə görə GDU-ya dövlət büdcəsindən ayrılan vəsaitlər, habelə ödənişli təhsildən, sahibkarlıq fəaliyyətindən və qanunvericiliyə uyğun olaraq həyata keçirilən digər fəaliyyətlərdən əldə olunan vəsaitlər hesabına təmin edilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **təhsil krediti** – fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir;

2.1.2. **ixtisasın (ixtisaslaşmanın) tədris planı** – ali təhsilin müvafiq səviyyəsində ixtisas (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə və auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir;

2.1.3. **ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki** – ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən sənəddir;

2.1.4. **tələbənin fərdi tədris planı** – tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəddir;

2.1.5. **ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı** – ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən sənəddir;

2.1.6. **müəllimin illik işçi tədris planı** – müəllimin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən sənəddir;

2.1.7. **tələbənin sərbəst işi** – tələbənin tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir;

2.1.8. **akademik məsləhətçi (tyutor)** – ali təhsil müəssisələrində və AMEA-da tədris məsləhətçisidir;

2.1.9. **akademik mobillik** – tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində və AMEA-da müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur;

2.1.10. **Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma istiqamətini müəyyənləşdirən sistemdir. Bu sistem, həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır;

2.1.11. **prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir;

2.1.12. **akademik transkript** – tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir;

2.1.13. **fənlər üzrə qeydiyyat** – tələbələrin təhsil müəssisəsinin və AMEA-nın müəyyən etdiyi qaydada fənləri seçmə prosedurudur;

2.1.14. **Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir;

2.1.15. **akademik təqvim** – ali təhsil müəssisəsində və AMEA-da tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir;

2.1.16. **müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir;

2.1.17. **akademik borcu olan tələbə** - fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir;

2.1.18. **tədrisə tam cəlb olunma (fulltime)** - ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

2.1.19. **tədrisə qismən cəlb olunma (parttime)** - ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;

2.1.20. **cari qiymətləndirmə** - fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir;

2.1.21. **aralıq qiymətləndirmə** - fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir.

## 3. İmtahan sessiyasının təşkili:

Təhsilin bakalavriat və magistratura səviyyələrində əyani və qiyabi təhsil forması üzrə ixtisaslarda sessiyanın gedişində qüvvədə olan tədris planlarına və mövcud təlimatlara riayət edilir.

Kredit sistemi ilə fəaliyyət göstərən ixtisaslarda imtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2014–cü il tarixli 348 saylı saylı qərarı ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları»na və Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi» Əsasnaməyə uyğun təşkil edilir.

Təhsilin bakalavriat və magistratura səviyyələrində əyani təhsil formasıı üzrə ixtisaslarda payız imtahan sessiyası 29 dekabr–01 fevral tarixdə, yaz imtahan sessiyası 01 iyun-05 iyul tarixlərdə keçirilir.

Bakalavriat səviyyəsində qiyabi təhsil forması üzrə ixtisaslarda payız imtahan sessiyası 05 yanvar–01 fevral, yaz imtahan sessiyası 01 iyun-05 iyul tarixdə keçirilir.

Payız və yaz imtahan sessiyalarının mütəşəkkil keçirilməsi, müvafiq metodiki işlərin həyata keçirilməsi və imtahan sessiyasına nəzarət edilməsi məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

- Universitet üzrə "İmtahan mərkəzi" yaradılır.
- Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Qaynar xətt" xidməti ilə əlaqə yaratmaq və imtahanlar zamanı baş vermiş neqativ hallar haqqında operativ məlumat ötürmək məqsədilə "İmtahan mərkəzi"nin tərkibində Universitet üzrə "İmtahan qərargahı" yaradılır və lazımi avadanlıqlarla təchiz edilir.
- "İmtahan mərkəzi"nin tərkibində test suallarının hazırlanması məqsədilə Bunker və "İşçi qrup" yaradılır.
- İmtahanların keçirilməsinə ictimai nəzarətin həyata keçirilməsi, hesabatlılığın və şəffaflığın təmin edilməsi məqsədilə Gəncə şəhərinin Respublikada tanınmış ziyalılarından, elm xadimlərindən, millət vəkillərindən, KİV nümayəndələrindən, tələbələrin valideynlərindən və QHT üzvlərindən ibarət "İctimai nəzarət şurası" yaradılır.
- Təhsilin bütün səviyyələrində əyani və qiyabi təhsil formalarında qəbul ediləcək bütün növ imtahanlarda qiymətləndirmə çoxballı sistem əsasında aparılır.
- Bütün kursların semestr imtahanlarının cədvəlləri payız semestri üçün 15 dekabradək, yaz semestri üçün 15 mayadək Tədris departamenti tərəfindən tədris planları əsasında mərkəzləşdirilmiş qaydada hazırlanır, təsdiq edilərək fakültələrə çatdırılır. Semestr imtahanlarının cədvəli dekanlıqlar tərəfindən fakültələrin internet ünvanında yerləşdirilməklə tələbələrə çatdırılır. Tələbələrə verilmiş imtahan sualları və testlərlə bağlı yaranan suallar əsasında fakültələr tərəfindən məsləhət saatlarının cədvəli tərtib edilir.
- Tələbələrin növbəti imtahanlara hazırlaşması üçün imtahanlararası vaxt 2 (iki) gündən az olmayaraq verilir.
- İmtahanların gedişatı zamanı yarana biləcək münaqişəli halların aradan qaldırılması və müvafiq tədbirlər görülməsi məqsədi ilə imtahan sessiyası başlananadək Universitet üzrə "Apelyasiya komissiyası" yaradılır.
- İmtahan nəticələri həmin gün, müstəsna hallarda isə növbəti gün tələbələrə elan edilir. Tələbə semestr imtahanları zamanı test, yazılı, şifahi və ya qabiliyyət imtahanının suallarından və nəticələrindən razı olmadıqda universitet üzrə yaradılmış Apellyasiya komissiyasının sədrinə həmin gün, müstəsna hallarda isə növbəti gün əsaslandırılmış ərizə ilə müraciət edir. Müraciət əsaslı olduqda Apellyasiya komissiyasının sədri uyğun fakültə dekanı, kafedra müdiri və fənn müəllimi daxil olmaqla komissiyanı təşkil etsin və nəticələr yenidən araşdırılır. Apellyasiya komissiyasının rəyi müsbət olduqda imtahanın nəticəsinə dəyişiklik edilir. İmtahan nəticələri elan olunduqdan sonra müəyyən edilmiş müddətdən gec təqdim olunmuş ərizə qəbul edilmir.

- Tələbələrin semestr imtahanları zamanı test, yazılı, şifahi və qabiliyyət imtahanlarına hazırlaşmalarına şərait yaratmaq məqsədilə ixtisas və qrup üzrə semestr ərzində tədris olunan bütün fənlərin mühazirə mətnləri universitetin saytında yerləşdirilir və tələbələrin sərbəst istifadə etməsinə şərait yaradılır.

- Bakalavriat səviyyəsində əyani və qiyabi ixtisaslarda semestr imtahanları kompüterdə test üsulu ilə, yazılı, şifahi, yaradıcılıq tələb edən ixtisaslarda bəzi fənlərdən qabiliyyət formasında keçirilir.

- İmtahanların keçirilmə formaları barədə Universitet üzrə əmr verilir.

- İmtahanların test üsulu ilə keçirilməsi üçün bunker yaradılır. Bunker işçi qrupu və lazımi avadanlıqlarla təchiz olunur.

- Təhsilin hər iki səviyyəsində əyani və qiyabi təhsil formalarında imtahan sessiyası başlananadək bütün növ imtahanlar üçün tələbələrin semestr ərzində topladıqları (kollokviumlar, frontal sorğular, praktik məşğələlərin həlli və s;) yekun ballar hesablanılır. Bu və ya digər səbəbdən imtahana (imtahanlara) buraxılmayan (25%-dən çox dərs buraxmış, cari tədris ilinin payız semestrinə aid təhsil haqqını tam ödəməyən) tələbələr haqqında payız semestri üçün dekabr ayının sonunadək, yaz semestri üçün may ayının sonunadək fakültə dekanları təqimat verir.

- Tələbənin semestr və dövlət imtahanlarında test, yazılı, şifahi və qabiliyyət imtahanları zamanı topladığı bal 17 (on yeddi) olduqda onun üzərinə semestr ərzində cari qiymətləndirmə zamanı topladığı bal əlavə edilir. Tələbənin imtahan balı ilə imtahanaqədərki balın cəmi 51 (əlli bir) və daha yuxarı olduğu halda onun fənn üzrə topladığı bal müvəffəq hesab edilir, əks təqdirdə nəticələr nəzərə alınmır.

- Əyani və qiyabi təhsil forması üzrə ixtisaslarda üzürsüz səbəbdən sessiyada iştirak etməyən və ya akademik borcu olan tələbələr növbəti semestrin dərsləri başlanana qədər öz fərdi tədris planlarında müvafiq dəyişikliklər aparır, həmin fənləri yenidən fərdi tədris planına daxil etsin və akademik borcu qalan fənlərin dərslərində iştirak edir. Akademik borcu qalan tələbələrin fərdi tədris planlarında müvafiq dəyişiklik aparılmasına ixtisaslar üzrə tyutorlar nəzarət edir.

- Test, yazılı, şifahi və qabiliyyət formasında imtahanlara nəzarət edilməsi, imtahanların şəfaf və təlimata uyğun keçirilməsinə nəzarət etmək məqsədilə nəzarətçilər qrupu yaradılır.

- Semestr müddətində tədris olunan hər bir fənn üzrə ayrılmış saatların 25%-dən çoxunda iştirak etməyən tələbə keçirilən proqrama tam yiyələnmədiyi üçün həmin fənnin imtahanına buraxılmır və buraxılmadığı fənlər akademik borc hesab edilir. Həmin tələbənin növbəti semestrlərdə müvafiq təlimata uyğun kredit borcu qalmış fənləri fərdi tədris planlarına daxil edilir və alt qrupda dərslərdə iştirakı təmin olunur.

- Akademik borcu qalan, Universitet daxilində bir ixtisasdan digərinə köçürülən, başqa ali təhsil müəssisələrindən köçürmə yolu ilə gələn, təkrar ali təhsil almaq üçün qəbul olunan və bərpa olunduğuna görə kredit fərqləri və borcları olan, adları dərs jurnallarına yazılan, alt qruplarda tədris məşğələlərində iştirak edərək imtahanaqədərki balları toplayan və fənn üzrə müəyyənləşdirilmiş təhsil haqqını ödəyən tələbələrin test, yazılı, şifahi və qabiliyyət imtahanlarına buraxılmaları üçün siyahı semestrin sonunda təqdimat şəklində rektorluğa təqdim olunur.

- Test, yazılı, şifahi və qabiliyyət imtahanlarına buraxılmayan tələbələrin siyahısı müəyyənləşdirilir, əmrləşdirilməsi üçün təqdimat şəklində rektorluğa təqdim edilir.

- Alt qruplara yazılmış fənn üzrə müəyənləşdirilmiş təhsil haqqını ödəyən tələbələrin imtahanlara buraxılmaları üçün rektorluğa təqdimat verilir.

- Alt qruplarda iştirak etmiş tələblər üçün imtahanlar yazılı formada fakültə dekanlıqları tərəfindən fakültələrdə təşkil olunur. Tələbənin fərdi tədris planındakı fənlərin imtahanları ilə alt qruplarının imtahanlarının üst-üstə düşməməsi üçün həmin imtahanların vaxtı yanvar ayı ərzində həftənin şənbə günlərinə təyin edilir.

- Əyani və qiyabi forma üzrə ixtisaslarda payız və yaz semestrləri üçün təhsil haqqını tam ödəməyən və ya əvvəlki illərdən təhsil haqqı borcu qalan tələbələrin imtahan sessiyasına buraxılmaması haqqında rektorluğa təqdimat verilir. Təhsil haqqı borcu qalmış tələbələr semestr imtahanlarına buraxılmır.

"Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" na uyğun olaraq əyani və qiyabi təhsil forması üzrə ixtisaslarda payız və yaz semestrində aşağıda qeyd edilən səbəblər üzrə imtahanlarda iştirak etməyən tələbələr üçün təkrar imtahanlar təşkil olunur:

- üzrlü səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən tələbələr imtahanda (imtahanlarda) iştirak etməməsinin üzrlü səbəbi haqqında rəsmi sənəd təqdim etdiyi halda imtahana (imtahanlara) buraxılır. Tələbə imtahandan müvəffəq qiymət aldığı təqdirdə təqaqüd müsabiqəsində iştirak edir;

- təhsil haqqını ödəmədiyinə görə imtahanlara buraxılmayan tələbələr təhsil haqqını tam şəkildə ödədikləri halda imtahana (imtahanlara) buraxılır. Tələbə imtahandan müvəffəq qiymət aldığı təqdirdə belə təqaqüd müsabiqəsinə buraxılmır;

- imtahan sessiyasında akademik borcu yaranmış tələbələr iki fəndən çox olmamaq şərti ilə (25%-dən çox dərsdə iştirak etməyənlər istisna olmaqla) fənn kreditlərinə uyğun təhsil haqqının 25%-ni ödədikləri halda;

- əks təqdirdə "gəlmədi" və "buraxılmır" "qeyri – kafi" qiymət sayılır.

- "İmtahan mərkəzi"nin tərkibində tələbələrin yazılı işlərinin qiymətləndirilməsində məxfiliyi qorumaq üçün kodlaşdırma qrupu yaradılır.

- Tələbələrin semestr imtahanları zamanı test, yazılı, şifahi və qabiliyyət imtahanlarına hazırlaşmalarına şərait yaratmaq məqsədilə Tədris departamenti tərəfindən təlimat hazırlanaraq, Universitetin internet ünvanına yerləşdirilir.

- Təhsilin hər iki səviyyəsində əyani və qiyabi təhsil formalarında fəaliyyət göstərən ixtisasların test, yazılı, şifahi və ya qabiliyyət imtahanlarına buraxılacaq tələbələrin imtahanaqədərki balları fakültə dekanlıqları tərəfindən imtahan sessiyası başlayana qədər hesablanılır.

**Bakalavriat səviyyəsi üzrə**

**Test formasında keçiriləcək imtahanlar:**

-Test imtahanları üçün 1 kredit üçün 100 test olmaq şərti ilə 500-700 sualdan ibarət testlər hazırlanır. Testlər cavabsız formada tələbələrə paylanılır. Test sualları müvafiq fakültənin internet ünvanında yerləşdirilir.

- Müəllimlər imtahandan bir gün əvvəl, axşam saat 18:00-da bunkerə dəvət edilir. Dəvət edilmiş müəllimlər tərəfindən hər bir fənn üçün tədris olunmuş materialdan tələbələrə verilmiş suallardan əlavə 25 ədəd test tərtib olunur.

- Test imtahanları üçün hər fənnə aid 50 (əlli) sual müəyyənləşdirilir. 50 (əlli) sualın 25 ədədi tələbələrə verilmiş suallardan, qalan 25 ədədi isə bunkerdə müəllim tərəfindən hazırlanmış sullardan ibarətdir. Hər sual üçün 5 (beş) variantda cavab (1 düz, 4 yanlış) hazırlanır. İmtahanda 1 sual 1 balla qiymətləndirilir. 4 səhv cavabın bir düz cavabı silməsi təmin edilir (buraxılış kurslar istisna olmaqla).

- Test İmtahaları üçün bir fənnə bir saat vaxt verilir.

- Kompüterlə imtahanların götürülməsi üçün 3 (üç) gözləmə və 10 (on) imtahan otağı ayrılır. Hər bir imtahan otağına 25 (iyirmi beş) tələbənin imtahan verə bilməsi üçün 25 (iyirmi beş) ədəd notbuk - kompüter qoyulur. Notbuklar daxili şəbəkəyə - imtahan bazası üçün nəzərdə tutulmuş serverə qoşulur.

- İmtahanlararası fasilə 15 (on beş) dəqiqə müəyyən edilir. İmtahana gəlməyən tələbəyə "gəlmədi" qeydi aparılır.

- İmtahan verən hər bir tələbə üçün istifadəçi adı və şifrəsi yaradılır.

- Fakültələrdə tələbələrin imtahanlara cədvəl üzrə vaxtında gəlmələrini ixtisaslar üzrə tyutorlara təmin edir. Tyutorlar öz tabeliyində olan ixtisasların tələbələrini imtahan

keçiriləcək əsas tədris binasına imtahanlar başlamazdan yarım saat (30 dəqiqə) qabaq gətirir. Tyutorlar siyahıya uyğun tələbələri imtahan nəzarətçisinə təhvil verir.

- Tələbələr imtahanlara tələbə vəsiqəsi və şəxsiyyət vəsiqəsi ilə buraxılır.
- Nəzarətçilər təhkim olunduqları otaqlar üzrə tələbələrin yerləşdirilməsini təmin edir.
- İmtahanın gedişində digər tələbələrlə danışan, tələbələrə mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən, mobil telefonlardan və s. icazə verilməyən materiallardan istifadə edən tələbə imtahandan xaric edilir, xüsusi akt forması tərtib olunduqdan sonra ona imtahan nəticəsinə görə “0” bal hesablanır. Tələbələrin icazə verilməyən materiallardan istifadə etməsinə şərait yaradan nəzarətçilər imtahan prosesindən uzaqlaşdırılır və yenisi ilə əvəz edilir.
- İmtahana gec gələn tələbə imtahana buraxılmır. İmtahan başladıqdan 30 (otuz) dəqiqə və daha çox vaxt keçdikdən sonra imtahanı bitirmiş tələbələrin otaqdan çıxmasına icazə verilir. Göstərilən müddətdə tələbələrin imtahana girməsinə və otaqdan cıxmasına imtahanlara ümumi nəzarət qrupunun üzvləri və imtahan nəzarətçiləri nəzarət edir.
- İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra nəzarətçi tərəfindən tələbələr auditoriyadan çıxarılır.
- Tələbənin serverdə yerləşdirilmiş semestr ərzində topladığı ballar imtahan balı ilə cəmlənir və yekun qiymət xüsusi cədvəl formasında 2 (iki) nüsxədə çap edilir. Tələbənin semestr ərzində topladığı ballar və yekun nəticə əks olunan cədvəl sistem administratoru və tədris departamentinin direktoru tərəfindən imzalandıqdan sonra tədris departamentinin möhürü ilə təsdiqlənir.
- İmtahan nəticələri imtahan günü, müstəsna hallarda isə növbəti gün tələbələrə elan edilir.

**Qabiliyyət formasında qəbul ediləcək fənlərin semestr imtahanları:**

- Təhsilin bakalavriat səviyyəsi üzrə qabiliyyət imtahanlarının götürülməsi nəzərdə tutulan bütün fənlər üçün hər birində 5 sual olmaqla 30 ədəd imtahan biletləri hazırlanır, kafedra müdiri və fənn müəllimi tərəfindən imzalandıqdan sonra tədris departamenti tərəfindən möhürlənsin. İmtahan biletləri üçün tərtib olunmuş suallar tələbələrə paylanılır.
- Fənlər üzrə yekun qiymətləndirmə vərəqələri sessiyanın başlanğıcına ən azı iki həftə qalmış fakültə dekanlığı tərəfindən 2 (iki) nüsxədə hazırlanır, tədris departamentində möhürlənir və imtahan günü imtahan qəbul etmək üçün dəvət olunmuş müəllimə təqdim edilir. Yekun qiymətləndirmə vərəqəsi imtahan başa çatdıqdan sonra müvafiq qaydada doldurularaq 1 (bir) nüsxəsi dekanlığa, 1 (bir) nüsxəsi isə tədris departamentinə təhvil verilir. Yekun qiymətləndirmə vərəqəsinə tələbələrin imtahandan aldığı qiymət, iştirak etməyən tələbəyə isə «gəlmədi» yazılır.
- Qabiliyyət imtahanlarının götürülməsi üçün II tədris binasında imtahan otaqları ayrılır. Hər bir imtahan otağına 2 nəfər tədris-köməkçi heyətdən nəzarətçi təyin edilir.
- Qabiliyyət imtahanlarına 3 saat vaxt ayrılır.
- İmtahanın gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən tələbə imtahandan xaric edilir imtahanın nəticəsinə görə ona «0 sıfır» bal müəyyənləndirilərək aktlaşdırılır.
- İmtahan biletini və cavab blanklarını təhvil vermədən imtahandan çıxan tələbəyə imtahanın nəticəsinə görə «0 sıfır» bal müəyyənləndirilərək aktlaşdırılır.
- İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra cavab blankları yığılır və fənn üzrə dəvət edilmiş ixtisasçı müəllimlər tərəfindən yoxlanılaraq qiymətləndirilir.
- Tələbənin fənn üzrə semestr ərzində və imtahanda topladığı ballar cəmlənərək, yekun bal dekanlıq tərəfindən müəyyənləşdirilir. Nəticələr imtahan verilən gün (müstəsna hallarda növbəti gün) tələbələrə elan edilir. Tələbənin fənn üzrə aldığı müsbət qiymət (ballar və onların hərfi işarəsi) yekun qiymətləndirmə formasına (K3) yazılır.
- Qabiliyyət imtahanları zamanı hər bir sualın cavabı “0-10” bal ilə qiymətləndirilir.

- Qabiliyyət imtahanlarının qəbul edilməsi, tələbələrin cavablarının (qrafiki işlərin) yoxlanıb, qiymətləndirilməsi məqsədilə fənlər üzrə ixtisasçı müəllimlərdən ibarət komissiyalar yaradılır. Xüsusi qabiliyyət tələb edən fənlərin imtahanı bu komissiyalar tərəfindən götürülür.

- Qabiliyyət imtahanları aşağıda göstərilən vaxtda başlayır:

**I növbədə oxuyanlar üçün saat $9^{00}$-da,**

**II növbədə oxuyanlar üçün saat $14^{00}$-da.**

**Bakalavriat və magistratura səviyyələri üzrə**

**Yazılı formada keçiriləcək imtahanlar:**

- Bakalavriat səviyyəsində yazılı imtahanların götürülməsi üçün II tədris binasında imtahan otaqları ayrılır. Hər bir imtahan otağına 2 nəfər tədris-köməkçi heyətdən nəzarətçi təyin edilir. Qiyabi təhsil forması üzrə ixtisasların və magistratura səviyyəsinin yazılı imtahanları V tədris binasında keçirilir.

- Təhsilin hər iki səviyyəsində yazılı imtahanların götürülməsi nəzərdə tutulan bütün fənlər üçün 5 sualdan ibarət olmaqla hər qrup üçün ayrılıqda 30 ədəd, magistratura səviyyəsində isə 15-30 ədəd imtahan biletləri hazırlanır, kafedra müdiri və fənn müəllimi tərəfindən imzalandıqdan sonra tədris departamenti tərəfindən möhürlənir. İmtahan biletləri üçün tərtib olunmuş suallar tələbələrə paylanılır və fakültələrin internet səhifəsində yerləşdirilir. Yazılı imtahan biletləri tədris olunmuş material əsasında tərtib olunur.

- Fənlər üzrə yekun qiymətləndirmə vərəqələri sessiyanın başlanğıcına ən azı iki həftə qalmış fakültə dekanlığı tərəfindən hazırlanır, tədris departamenti tərəfindən möhürlənir və imtahan günü imtahan qəbul etmək üçün dəvət olunmuş müəllimə təqdim edilir. Yekun qiymətləndirmə vərəqi imtahan başa çatdıqdan sonra müəllim tərəfindən iki nüsxədə müvafiq qaydada doldurulur, bir nüsxəsi fakültə dekanlığına, bir nüsxəsi isə tədris departamentinə təhvil verilir. Yekun qiymətləndirmə vərəqinə tələbələrin imtahandan aldığı qiymət, iştirak etməyən tələbəyə isə «gəlmədi» yazılır.

- Yazılı imtahanlara 2 saat vaxt ayrılır.

- İmtahanın gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən tələbə imtahandan xaric edilir və imtahanın nəticəsinə görə ona 0 (sıfır) bal müəyyənləndirilərək aktlaşdırılır.

- İmtahan biletini və cavab blanklarını təhvil vermədən imtahandan çıxan tələbəyə imtahanın nəticəsinə görə 0 (sıfır) bal müəyyənləndirilərək aktlaşdırılır.

- İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra cavab blankları yığılır, kodlaşdırma qrupu tərəfindən kodlaşdırılır və fənn üzrə dəvət edilmiş ixtisasçı müəllimlər tərəfindən yoxlanılaraq qiymətləndirilir. Zərurət olduğu halda yoxlamaya kafedranın digər müəllimləri cəlb edilə bilər. Qiymətləndirilmə başa çatdıqdan sonra tələbələrin yazı işləri və müvafiq sənədlər fakültə dekanlığının nümayəndəsinə təhvil verilir.

- Tələbənin fənn üzrə semestr ərzində və imtahanda topladığı ballar cəmlənərək, yekün bal müəyyənləşdirilir. Nəticələr yazılı imtahan verilən gündən 3 gün ərzində tələbələrə elan edilir. Tələbənin fənn üzrə aldığı qiymət yekun qiymətləndirmə formasına (K3) yazılır.

- Yazılı imtahanlar zamanı hər bir sualın cavabı “0-10” bal ilə qiymətləndirilir.

- Yazılı imtahanlar 3 növbədə aşağıdakı kimi keçirilir:

**I növbə - saat 09:00-dan – 11:00-a kimi,**

**II növbə - saat 11:30-dan – 13:30-a kimi,**

**III növbə - saat 15:00-dan – 17:00-a kimi.**

- Qiyabi ixtisaslarda təhsil alan tələbələrə imtahan sessiyası başlanana qədər müəyyən olunmuş forma üzrə arayış – çağırış vərəqəsi göndərilir. Arayış –çağırışların tələbələrə çatdırılmasına, eləcə də onların dərslərə və imtahanlara gəlmələrinə qiyabi şöbənin rəhbərliyi nəzarət edir.

## 4. Yekun Dövlət Attestasiyası

**Test formasında keçiriləcək dövlət imtahanları:**

- Test üsulu ilə keçirilən dövlət tədris ilinin sonunda 05 iyul tarixədək yekunlaşdırılır.

- Dövlət imtahanlarının test üsulu ilə kompüterdə qəbul edilməsi üçün hər ixtisas üzrə ixtisas fənlərini əhatə edən 5 (beş) fənn müəyyənləşdirilir. Hər bir fənn üçün fənn proqramları əsasında 100 (yüz) sual hazırlanır. Hər bir suala 5 (beş) cavab (1-i doğru, 4-ü yanlış) hazırlanır. Tərtib olunmuş suallar müvafiq ekspertizadan keçirilir. Dövlət imtahanı və buraxılış işlərinin müdafiəsi üçün tələb olunan sənədləri vaxtında hazırlayıb komissiyaya təqdim edilməsinə fakültə dekanları nəzarət edir.

- Test imtahanları üçün hər fənnə aid 10 (on) sual müəyyənləşdirilir (cəmi 50 sual). Hər sual üçün 5 (beş) variantda cavab (1 düz, 4 yanlış) hazırlanır. Tələbənin test imtahanından balları hesablanan zaman 4 (dörd) səhv cavabın 1 (bir) düzgün cavabı silməsi təmin edilir.

- Testlər cavabları qarışdırılmış formada tələbələrə paylanılır. Test sulları müvafiq fakültənin internet ünvanında yerləşdirilir.

- Test imtahanları üçün bir saat vaxt verilir. İmtahanda 1 sual 1 balla qiymətləndirilir.

- İmtahanların kompüterlə götürülməsi üçün 3 (üç) gözləmə və 10 (on) imtahan otağı ayrılır. Hər bir imtahan otağına 30 tələbənin imtahan verə bilməsi üçün 30 ədəd notbuk - kompüter qoyulur. Notbuklar daxili şəbəkəyə-imtahan bazası üçün nəzərdə tutulmuş serverə qoşulur.

- Bir imtahan üçün 1 (bir) saat vaxt ayrılır. İmtahanlararası fasilə 30 (otuz) dəqiqə müəyyən edilir. İmtahana gəlməyən tələbəyə "gəlmədi" qeydi aparılır.

- İmtahan verən hər bir tələbə üçün istifadəçi adı və şifrəsi yaradılır.

- Fakültələrdə tələbələrin imtahanlara cədvəl üzrə vaxtında gəlmələrini təmin edilməsinə ixtisaslar üzrə tyutorlar nəzarət edir. Tyutorlar öz tabeliyində olan ixtisasların tələbələrini imtahan keçiriləcək əsas tədris binasına imtahanlar başlamazdan yarım saat (30 dəqiqə) qabaq gətirir. Tyutorlar siyahıya uyğun tələbələri imtahan nəzarətçisinə təhvil verir.

- Tələbələr imtahanlara tələbə vəsiqəsi və şəxsiyyət vəsiqəsi ilə buraxılır.

- Nəzarətçilər təhkim olunduqları otaqlar üzrə tələbələrin yerləşdirilməsini təmin edir.

- İmtahanın gedişində digər tələbələrlə danışan, tələbələrə mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən, mobil telefonlardan və s. icazə verilməyən materiallardan istifadə edən tələbə imtahandan xaric edilir, xüsusi akt forması tərtib olunduqdan sonra ona imtahan nəticəsinə görə "0" bal hesablanır. Tələbələrin icazə verilməyən materiallardan istifadə etməsinə şərait yaradan nəzarətçilər imtahan prosesindən uzaqlaşdırılır və yenisi ilə əvəz edilir.

- İmtahana 20 dəqiqə gecikən tələbə imtahana buraxılmır. İmtahan başladıqdan 30 (otuz) dəqiqə və daha çox vaxt keçdikdən sonra imtahanı bitirmiş tələbələrin otaqdan çıxmasına icazə verilir. Göstərilən müddətdə tələbələrin imtahana girməsinə və otaqdan cıxmasına imtahanlara ümumi nəzarət qrupunun üzvləri və imtahan nəzarətçiləri nəzarət edir.

- İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra proqram avtomatik olaraq tələbənin imtahan səhifəsini deaktiv etdiyinə görə nəzarətçi tərəfindən tələbələr auditoriyadan çıxarılır.

- Tələbənin serverdə yerləşdirilmiş semestr ərzində topladığı ballar imtahan balı ilə cəmlənir və yekun qiymət xüsusi cədvəl formasında 2 (iki) nüsxədə çap edilir. Tələbənin semestr ərzində topladığı ballar və yekun nəticə əks olunan cədvəl sistem administratoru və tədris departamentinin direktoru tərəfindən imzalandıqdan sonra tədris departamentinin möhürü ilə təsdiqlənir.

- İmtahan nəticələri imtahan günü, müstəsna hallarda isə növbəti gün tələbələrə elan edilir.

- Dövlət imtahanında 5 fənnin hər birindən ən azı 3 və daha çox bal toplayan, cəmi balı 17 və daha çox olan, yekun balı 51 və ondan yuxarı olan tələbənin balı keçərli hesab edilir.

Dövlət imtahanı üçün nəzərdə tutulan 5 fənnin hər hansı birindən 3 baldan az toplayan tələbə Dövlət imtahanından keçməmiş hesab edilir.

- Yaradıcılıq tələb edən Musiqi müəllimliyi, Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi (Qızlar üçün fiziki tərbiyə) və Bədən tərbiyəsi və idman ixtisaslarında dövlət imtahanlarına düşən fənlərdən imtahan kompüterdə test üsulu keçirilir.

Yekun qiymətləndirmə vərəqi əsasında protokol tərtib edilir.

**Qabiliyyət formasında qəbul ediləcək fənlərin dövlət imtahanları:**

- Təhsilin bakalavriat səviyyəsi üzrə Təsviri incəsənət müəllimliyi ixtisasında dövlət imtahanları qabiliyyət formasında keçirilir.

- Dövlət imtahanlarının qabiliyyət formasında qəbul edilməsi üçün ixtisas kafedraları tərəfindən hər fənn üçün (Rəsm və Boyakarlıq) 100 sual olmaqla suallar hazırlanır. İmtahanların qabiliyyət formasında keçirilməsi üçün hər birində 5 sual olmaqla hər fənn üçün (Rəsm və Boyakarlıq) iki variantda 30 ədəd (I variant 15 bilet, II variant 15 bilet) bilet tərtib edilir. İmtahan sualları aprel ayının əvvəlində tələbələrə paylanır və fakültə dekanlığının elan lövhəsindən asılır. Biletlər fənn müəllimi və kafedra müdiri tərəfindən imzalandıqdan sonra təsdiq edilmək üçün rektorluğa təqim edilir və müvafiq qayadada imzalandıqdan sonra Univeristetin gerbli möhürü ilə möhürlənir. Dövlət imtahanı üçün nəzərdə tutulan fənlərdən tərtib olunacaq sualların keçilmiş proqrama uyğunluğuna və tələbələrə çatdırılmasına uyğun kafedra müdirləri və fakültə dekanları nəzarət edir.

- Dövlət imtahanına aid sənədlər sessiyanın başlanğıcına ən azı iki həftə qalmış fakültə dekanlığı tərəfindən hazırlanır və tədris departamentində möhürlənir. Əl işlərini yoxlamaq üçün ixtisas üzrə müəllimlər dəvət edilir. Əl işlərini yoxlayan müəllimlər hər fənni ayrı-ayrılıqda yoxlayıb qiymətləndirir və sənədin sonunda nəzərdə tutulan hissədə fənnin adını, balını, özünün soyad və adını qeyd edərək imzalayır. Dövlət imtahanında toplanılmış ballar attestasiya sənədlərini hazırlamaq üçün təyin edilmiş kargüzar tərəfindən cəmlənilərək imzalanır. Yekun qiymətləndirmə vərəqəsinə tələbələrin imtahandan aldığı bal, attestasiyaya qədərki bal, yekun bal və səviyyənin hərfi işarəsi yazılır. Yekun qiymətləndirmə kargüzar tərəfindən doldurulduqdan sonra DAK üzvləri tərəfindən imzalanır. Yekun qiymətləndirmə vərəqi əsasında protokol tərtib edilir.

- Qabiliyyət formasında keçirilən dövlət imtahanlarına 3 saat vaxt ayrılır.

- İmtahan gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən, imtahan biletini və cavab blanklarını təhvil vermədən imtahandan çıxan tələbə imtahandan xaric edilərək imtahanın nəticəsinə görə ona «0 sıfır» bal müəyyənləşdirilir.

- İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra cavab blankları yığılır və fənn üzrə dəvət edilmiş ixtisasçı müəllimlər tərəfindən yoxlanılaraq qiymətləndirilir.

- Təsviri incəsənət müəllimliyi ixtisasında dövlət imtahanına düşən fənlərin qiymətləndirilməsində aşağıdakı üsuldan istifadə edilir:

a) Qabiliyyət formasında dövlət imtahanı iki mərhələdə aparılır.

- I mərhələdə qabiliyyət imtahanı (Rəsm və Boyakarlıq);

- II mərhələdə test imtahanı (İncəsənət tarixi, Pedaqogika, Təsviri incəsənətin tədrisi metodikası)

b) Qabiliyyət imtahanı üçün maksimum 20 bal (hər fənn üçün 10 bal), test imtahanı üçün isə maksimum 30 bal (hər fənn üçün 10 bal) müəyyənləşdirilir. Qabiliyyət imtahanından minimum 10 bal (hər fənn üçün 5 bal), test imtahandan isə minimum 7 bal (İncəsənət tarixi 2 bal, Pedaqogika 2 bal, Təsviri incəsənətin tədrisi metodikası 3 bal) (5+5+2+2+3=17 bal) toplandığı halda 17 bal keçərli hesab edilir.

c) Qabiliyyət imtahanının qiymətləndirilməsi aşağıdakı qaydada aparılır:

- hər fənn üzrə qiymətləndirmə aşağıdakı 2 mərhələdə həyata keçirilir.

**I mərhələ Rəsm fənni üzrə:**

1) İşin kamponovkası (yerləşdirilməsi)

2) İşin qurulması
3) Proporsiyaların verilməsi
4) Formaların dəqiqləşdirilməsi
5) İşıq kölgənin verilməsi və işin tamamlanması

Hər mərhələ 0-10 balla qiymətləndirilir. Rəsm fənni üzrə maksimum 50 bal müəyyən edilir.

**II mərhələ Boyakarlıq fənni üzrə:**

1) İşin kamponovkası (yerləşdirilməsi)
2) İşin qurulması
3) Rəngin müəyyənləşdirilməsi
4) İşıq kölgə vasitəsilə həcmliyin verilməsi
5) Rənglə işin tamamlanması

Hər mərhələ 0-10 balla qiymətləndirilir. Boyakarlıq fənni üzrə maksimum 50 bal müəyyən edilir.

Rəsm və boyakarlıq fənlərinin balları cəmlənilir və qabiliyyət imtahanı üçün maksim 100 bal nəzərdə tutulur.

ç) Qabiliyyət imtahanından toplanılmış yekun bal aşağıdakı düsturla hesablanır:

$$Y_b = \frac{10x\dot{I}_b}{50}$$

Burada $Y_b$ – yekun bal, 10- hər fənn üzrə maksimum balı, $\dot{I}_b$ – qabiliyyət imtahanından toplanılmış balı, 50 – fənn üzrə maksimum balı göstərir.

- Qabiliyyət formasında keçiriləcək dövlət imtahanları saat $09^{00}$-da başlanılsın.

**Buraxılış işi və magistrlik dissertasiyalarının müdafiəsinin təşkili**

Buraxılış işlərinin magistrlik dissertasiyalarının müdafiəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Əsasnamə", əmr və sərəncamlar əsas götürülür.

- Buraxılış işlərinin müdafiəsi ixtisaslar üzrə yaradılmış Yekun Dövlət Attestasiya Komissiyası tərəfindən həyata keçirilsin.

- Elm və Təhsil Nazirinin əmri ilə təsdiq edilmiş sədrlərin Yekun Dövlət Attestasiyasında iştirakı üçün işlədikləri müəssisələrə məktublar göndərilir.

- Dissertasiya işlərinin müdafiəsi İxtisaslaşdırılmış Elmi Şuralarda aparılır.

- Attestasiya zamanı zəruri metodik işlər həyata keçirilir. İclas protokolları, onun doldurulması və imzalanmasını təmin etmək məqsədilə fakültələr üzrə kargüzarlar təyin olunur.

**Kafedra müdirlərinin vəzifələri:**

Təhsilin hər iki səviyyəsində əyani təhsil formasında imtahan verəcək bütün kurslar üçün məsləhət saatları təşkil edilir.

- Yazılı, test, şifahi və qabilyyət imtahanları üçün tərtib olunan testlərin və sualların keçirilən proqrama uyğunluğuna, suallarda təkrarlamalara yol verilməməsinə, test suallarında cavab variantlarının düzgünlüyünə nəzarət edilir. Qeyd edilən qüsurlara yol verən müəllimlər və kafedra müdirləri barəsində ciddi tədbir görülməsi nəzərdə tutulur.

- Sessiya dövründə kitabxanaların fasiləsiz işləməsi təmin edilsin və bu işin təşkili kitabxana müdirinə tapşırılsın.

- Tələbələrin imtahana hazırlaşması üçün sosial-məişət, ictimai-iaşə və qiraət xidmətini yaxşılaşdırmaq inzibati-təsərrüfat işləri üzrə prorektorluq, tələbə həmkarlar təşkilatı və tələbə-gənclər təşkilatı tərəfindən həyata keçirilir.